2017-ci ilin yanvar ayında ev təsərrüfatlarında sənaye məhsulu istehsalı, habelə hüquqi şəxs yaratmadan fiziki şəxs kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işi də nəzərə alınmaqla 88215,5 min manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz çoxdur. Sənaye istehsalının 96,1 faizi malların, 3,9 faizi isə xidmətlərin payına düşmüşdür.

Sənayenin dövlət sektorunda 4361,5 min manatlıq, qeyri-dövlət sektorunda 83854 min manatlıq məhsul istehsal edilmişdir.

2016-cı ildə muxtar respublikanın sənaye müəssisələrində 15987 nəfər işçi çalışmışdır ki, bu da 2015-ci illə müqayisədə 1,5 faiz çoxdur. Sənaye sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2015-ci ilə nisbətən 1,7 faiz artaraq 370,8 manat olmuşdur.